

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 noyabr 2026-cı il №80 (3082) https://mod.gov.az Qiyməti 30 qəpik

Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Konstitusiya Günü ilə bağlı paylaşım edilib



Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında 12 Noyabr - Konstitusiya Günü ilə bağlı paylaşım olunub.

AZƏRTAC paylaşımı təqdim edib.

Birinci vitse-prezident Mehriban Əliyeva Konstitusiya Günü ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 12 Noyabr - Konstitusiya Günü münasibətilə sosial şəbəkə hesablarında foto paylaşıb.

AZƏRTAC paylaşımı təqdim edib.

Azərbaycan Respublikasının müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerə başsağlığı verib.

Başsağlığında deyilir: “Malatya vilayətində S-70 tipli hərbi helikopterin qəzaya uğraması nəticəsində dörd nəfər hərbi qulluqçunun həlak olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olan hərbi qulluqçulara Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin”.

“Məşqlər zamanı hərbi qulluqçular öz nəticələrini yaxşılaşdırmağa çalışırlar”

Azərbaycan Ordusunda şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların fiziki imkanlarının inkişaf etdirilməsi və qarşıya qoyulan tapşırıqları istənilən şəraitdə yerinə yetirmək bacarığının təkmilləşdirilməsi istiqamətində mütəmadi məşğələlər keçirilir. Bu prosesdə fiziki hazırlıq xüsusi yer tutur. Çünki hərbi qulluqçunun peşəkarlığı yalnız nəzəri bilikləri və silahdan istifadə bacarığı ilə deyil, eyni zamanda, gücü, çevikliyi, dözümlülüyü və iradəsi ilə də müəyyən olunur. Bu baxımdan fiziki hazırlıq məşğələləri şəxsi heyətin xidmət və döyüş qabiliyyətinin möhkəmləndirilməsində mühüm əhəmiyyət daşıyır. Məşğələlər zamanı hərbi qulluqçuların fiziki göstəricilərinin yaxşılaşdırılması, fərdi imkanlarının inkişaf etdirilməsi və hazırlıq səviyyəsinin yüksəldilməsi əsas diqqət mərkəzində saxlanılır. Kollektiv şəkildə keçirilən məşqlər isə şəxsi heyətdə qarşılıqlı dəstək nizam-intizama və komanda ruhunun möhkəmlənməsinə töhfə verir.

(Ardı 6-cı səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammitində iştirak etmək üçün noyabrın 10-da Türkiyəyə səfər edib.

Antalya Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlu, Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komissiyasının sədri Fuat Oktay, Türkiyə Böyük Millət Məclisinin üzvü Mövlud Çavuşoğlu, Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Noyabrın 11-də Türkiyənin Antalya şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı Sammitdə iştirak etmək üçün Antalyadakı Ekspo Mərkəzinə gəlib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və BMT-nin Baş katibi Antonio Quterreş Prezident İlham Əliyevi, Sammitdə iştirak edən digər dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşılayıblar.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammitinin iştirakçıları birgə foto çəkdiriblər.

Sammit bədii hissə ilə başlayıb.

(Ardı 2-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Avropa Siyasi Birliyi”nin 9-cu Zirvə Toplantısında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın Baş naziri Mixol Martinin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə “Avropa Siyasi Birliyi”nin 9-cu Zirvə Toplantısında iştirak etmək üçün İrlandiyaya səfər edib.

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dublində Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb.

Ukrayna Prezidenti dövlətimizin başçısını Zəfər Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik edib.

Görüşdə Prezident Volodimir Zelenskinin Azərbaycana səfəri və səfər zamanı aparılmış müzakirələr məmnunluqla xatırlanıb.

Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, eyni zamanda, özəl sektorun xətti ilə iqtisadi əlaqələrin inkişaf perspektivləri müzakirə olunub, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri məsələsi barədə fikir mübadiləsi aparılıb.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlara, xüsusilə elektrik avadanlıqlarının təchizatı məsələsində dəstəyə görə təşəkkürünü bildirib.

Söhbət zamanı Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda postmünaqişə şəraitində apardığı bərpa və quruculuq işlərinin Ukrayna tərəfindən də böyük maraqla izlənildiyi qeyd olunub, bu xüsusda ölkəmizin təcrübəsinin Ukrayna üçün də əhəmiyyətli olacağı bildirilib.

Görüşdə Azərbaycan və Ukrayna prezidentləri qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dublində “Avropa Siyasi Birliyi”nin 9-cu Zirvə Toplantısı çərçivəsində Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

Söhbət zamanı dövlətimizin başçısının Maya Sandu ilə görüşləri, həmçinin yüksəksəviyyəli qarşılıqlı səfərlər məmnunluqla xatırlanıb.

(Ardı 2-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri







(Əvvəli 1-ci səhifədə)

Sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş, Avstraliya İttifaqının Baş naziri Entoni Albaniz, Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli, Braziliya Federativ Respublikasının Prezidenti Luiz İnasio Lula da Silva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış ediblər.

Türkiyə Prezidenti çıxışında əvvəlki COP sədrliklərinin təcrübələrini bölüşdüklərinə görə Azərbaycana və Braziliyaya təşəkkürünü bildirib.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri noyabrın 11-də başa çatıb.

Antalya Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlu, Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər yola salıblar.

AZƏRTAC-ın materialları əsasında

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Avropa Siyasi Birliyi”nin 9-cu Zirvə Toplantısında iştirak edib







(Əvvəli 1-ci səhifədə)

Prezident Maya Sandu Moldovanın Azərbaycanla enerji sahəsində əməkdaşlığına toxunub və bunu inkişaf etdirməkdə maraqlı olduqlarını bildirib.

Moldova Prezidenti ölkəsinin enerji təhlükəsizliyinə göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib.

Azərbaycan və Moldova prezidentləri münasibətlərimizin perspektivlərinə, iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə, həmçinin kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıblar.

* * *

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın paytaxtı Dublində “Avropa Siyasi Birliyi”nin 9-cu Zirvə Toplantısının açılış plenar sessiyasında iştirak edib.

Prezident İlham Əliyev sessiyada iştirak etmək üçün Dublindəki Konqres Mərkəzinə gəlib.

İrlandiyanın Baş naziri Mixol Martin dövlətimizin başçısını qarşılayıb.

Azərbaycan Prezidenti Zirvə Toplantısının açılış plenar sessiyasında iştirak edib.

Sonda toplantı iştirakçıları birgə foto çəkdiriblər.

* * *

“Avropa - güclü, təhlükəsiz və əlaqəli” mövzusuna həsr olunan budəfəki Zirvə Toplantısının gündəliyində rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, innovasiyaların təşviqi, nəqliyyat bağlantılarının inkişafı, əlçatan enerji, həmçinin Avropanın təhlükəsizliyi və müdafiəsi məsələləri yer alıb. Builki Toplantıda 50-yə yaxın dövlət və hökumət başçısı iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində Bolqarıstan Respublikasının Baş naziri Rumen Radev ilə görüşüb.

Dövlətimizin başçısı bir neçə gün əvvəl Bolqarıstanda baş vermiş ağır yol-nəqliyyat hadisəsi nəticəsində insanların həlak olması ilə bağlı Baş nazir Rumen Radevə bir daha başsağlığı verib.

Bolqarıstanın Baş naziri başsağlığına və ifadə olunmuş həmrəyliyə görə minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycanla Bolqarıstan arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb, dostluq və strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə edilib.

Görüşdə enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edilərək, bu istiqamətdə tərəfdaşlığı möhkəmləndirmək üçün yaxşı perspektivlərin olduğu vurğulanıb, ölkələrimiz arasında elektrik enerjisi dəhlizi layihəsinin yaradılması, həmçinin bağlantılarla bağlı fikir mübadiləsi aparılıb.

Azərbaycan Prezidenti və Bolqarıstanın Baş naziri müxtəlif sahələrdə əlaqələrimizin inkişafı ilə bağlı məsələləri müzakirə ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İrlandiyanın Dublin şəhərində keçirilən “Avropa Siyasi Birliyi”nin 9-cu Zirvə Toplantısı çərçivəsində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşüb.

Liderlər 2025-ci il avqustun 8-də keçirilmiş Vaşinqton Sülh Sammitinin nəticələrinə və həmin tədbirdə imzalanmış Vaşinqton Birgə Bəyannaməsinə əsaslanaraq, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəliləlidilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə iki ölkə arasında sülhün daha da möhkəmləndirilməsinə yönəlmiş praktiki addımlara, o cümlədən nəqliyyat və tranzit əlaqələrinin inkişafına, iqtisadi-ticari münasibətlərə, sərhədlərin delimitasiyasına və etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinə dair müzakirələr aparılıb.

Liderlər bu kontekstdə Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) inkişafı istiqamətində əldə olunmuş irəliləyişləri, o cümlədən onun dəmir yolu və avtomobil yolu komponentlərinin planlaşdırılması və layihələndirilməsini, həmçinin TRIPP marşrutu boyunca tranzit əlaqələrinin perspektivlərini müzakirə ediblər.

Yüklərin Azərbaycan ərazisindən keçməklə Ermənistana və Ermənistandan tranziti müsbət hal kimi qeyd olunub. Ötən ilin noyabr ayından etibarən Azərbaycan ərazisindən Ermənistana ümumilikdə 105 min ton yük daşınıb.

Tərəflər, həmçinin Azərbaycan ilə Ermənistan arasında iqtisadi və ticari əlaqələrin daha da inkişaf etdirilməsi imkanları, o cümlədən gələcəkdə elektrik şəbəkələrinin birləşdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Liderlər ətraf mühit və transsərhəd su əməkdaşlığının əhəmiyyətini vurğulayıb, transsərhəd çayların idarə olunması üzrə işçi qrupların yaradılmasını alqışlayıblar.

Liderlər sülh prosesində müsbət dinamikanın qorunub saxlanılmasının, regionda sülhün, sabitliyin və rifahın möhkəmləndirilməsinə yönəlmiş dialoqun davam etdirilməsinin vacibliyini bir daha təsdiqləyiblər.

(Ardı 3-cü səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Avropa Siyasi Birliyi”nin 9-cu Zirvə Toplantısında iştirak edib







(Əvvəli 2-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 12-də Dublində Yunanıstan Respublikasının Baş naziri Kiriakos Miçotakis ilə görüşü olub.


Söhbət zamanı Azərbaycan-Yunanıstan ikitərəfli əlaqələri nəzərdən keçirilib.

Ölkəmizin Avropanın, o cümlədən Yunanıstanın enerji təhlükəsizliyində oynadığı rol və bu məsələyə verdiyi töhfə vurğulanıb. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə toxunulub.

Görüşdə Azərbaycanın Avropaya enerji, xüsusilə qaz ixracının artırılması üçün əlavə imkanların olduğu bildirilib, bu baxımdan Avropa İttifaqının maliyyə və prosedur mexanizmlərinə yenidən baxılmasının vacibliyi vurğulanıb.

* * *

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dublində Çex Respublikasının Baş naziri Andrey Babişlə görüşü olub.









Baş nazir Andrey Babiş bu ilin aprelində ölkəmizə rəsmi səfərini və Qəbələdə dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırlayıb. Həmin səfər çərçivəsində müzakirə olunmuş məsələlərin icrasında yaxşı nəticələrin əldə olunduğu vurğulanıb.

Görüşdə iqtisadi-ticari əlaqələrin inkişafı, investisiya layihələrinin həyata keçirilməsi, iki ölkənin biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili məsələləri müzakirə olunub.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı mühüm rola toxunularaq, ölkəmizin Çexiyanın ən iri neft təchizatçısı olduğu qeyd edilib.

* * *

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dublində Rumıniya Prezidenti Nikuşor Dan ilə görüşüb.

Dövlətimizin başçısı ilə görüşdən məmnunluğunu bildirən Prezident Nikuşor Dan ölkələrimiz arasında dostluq əlaqələrinin olduğunu vurğulayaraq, Azərbaycan Prezidentini Rumıniyada səfərdə görməkdən məmnun olacağını bildirib.

Prezident İlham Əliyev münasibətlərimizin strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini deyib və əlaqələrimizin daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayıb.

Dövlət başçıları ikitərəfli müzakirələrə əsaslanaraq, strateji tərəfdaşlığımızın dərinləşdirilməsinə, əsas enerji və bağlantı layihələrinin irəlilədilməsinə, həmçinin ortaq siyasi və iqtisadi gündəliyin həyata keçirilməsinə dair fikir mübadiləsi aparıblar.

Azərbaycanın Rumıniya üçün və Avropanın enerji təhlükəsizliyi baxımından mühüm tərəfdaş olduğu vurğulanıb. Enerji sahəsində mövcud əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirilib. Xəzər dənizini və Qara dənizi birləşdirən əməkdaşlığımızın inkişafı üçün böyük potensialın mövcudluğu qeyd edilib.

Görüşdə ölkələrimiz arasında bağlantılar, şəhərlərarası və elmtəhsil sahəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb, müdafiə sənayesi sahəsində əlaqələrin perspektivləri qeyd edilib.

Son dövrlərdə ölkələrimiz arasında müxtəlif səviyyələrdə həyata keçirilən səfərlərin əhəmiyyəti vurğulanıb.

Rumıniya Prezidenti əlaqələrimizin humanitar-mədəni aspektinin vacib hissəsi kimi paytaxt Buxarestdə Heydər Əliyev parkının mövcudluğunu qeyd edib və hazırda parkda təmir işlərinin uğurla aparıldığını bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 12-də Dublində Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə görüşü olub.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, ölkəmizə səfərini xatırlayıb. O, Azərbaycan-Avropa İttifaqı dialoqunun və əməkdaşlıq məsələlərinin müzakirəsini davam etdirmək üçün Prezident İlham Əliyevi Avropa İttifaqına səfərə dəvət edib.

Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın ölkəmizə səfərini xatırlayıb və qeyd edib ki, bu, əlaqələrimizin inkişafına yaxşı imkanlar açır.

Prezident İlham Əliyev ölkəmizin etibarlı tərəfdaş kimi Avropanın enerji təchizatı və enerji təhlükəsizliyində oynadığı rola toxunaraq vurğulayıb ki, Azərbaycan hazırda Avropa İttifaqının 10 üzv ölkəsinə qaz ixrac edir.

Ölkəmizlə Avropa İttifaqı arasında qaz təchizatı sahəsində uğurlu əməkdaşlığın davam etdirilməsi baxımından uzunmüddətli enerji müqavilələrinin və maliyyə mexanizmlərinin yenidən nəzərdən keçirilməsinin vacibliyi qeyd olunub.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji, o cümlədən bərpaolunan enerji sahəsində əməkdaşlığa toxunularaq, bu xüsusda Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında bərpaolunan enerjinin Avropa bazarına ixracı üçün əldə olunmuş razılaşma vurğulanıb.

Avropa İttifaqı tərəfindən Naxçıvan dəmir yolu layihəsi üzrə qiymətləndirmənin tezliklə yekunlaşdırılacağı bildirilib.

Orta Dəhlizin əhəmiyyəti qeyd edilib, nəqliyyat və bağlantıların inkişafı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 12-də Dublində Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olub.

Söhbət zamanı ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu vurğulanıb, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlığın inkişafı üçün daha böyük potensialın mövcudluğu qeyd edilib.

Azərbaycanın və Litvanın dövlət başçıları regional sülh gündəliyi, ikitərəfli münasibətlər və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişləndirilməsi barədə fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dublində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem ilə görüşüb.

Əvvəlcə “Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə” mübadilə olunub.

Söhbət zamanı bu Bəyannamənin qəbul edilməsinin əlaqələrimizin rəsmi olaraq keyfiyyətcə yeni səviyyəyə qalxmasına xidmət etdiyi vurğulanıb. Hətta bu sənədin qəbulundan əvvəl də Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bir daha qeyd edilib.

(Ardı 4-cü səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Avropa Siyasi Birliyi”nin 9-cu Zirvə Toplantısında iştirak edib





(Əvvəli 3-cü səhifədə)

Dövlətimizin başçısı ölkələrimiz arasında enerji sahəsində 30 ildən artıq davam edən uğurlu əməkdaşlığa toxunaraq, Böyük Britaniyanın Azərbaycanda Avropanın ən böyük investoru olduğunu deyib.

Hazırda bərpaolunan enerji, yüksək texnologiyalar, süni intellekt sahələrində də əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulanıb. Bu xüsusda son aylarda Britaniyadan Azərbaycana həyata keçirilən yüksəksəviyyəli rəsmi səfərlərin və aparılmış müzakirələrin əhəmiyyətinə toxunulub.

Görüşdə, həmçinin beynəlxalq gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dublində “Avropa Siyasi Birliyi”nin 9-cu Zirvə Toplantısı çərçivəsində keçirilmiş “Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji” (“Building a competitive Europe - innovation, connectivity and affordable energy”) mövzusunda dəyirmi masada iştirak edib.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev gələcəkdə alternativ enerjinin rolunun daha da artacağını deyib. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin roluna toxunan dövlətimizin başçısı bu xüsusda Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair 2022-ci ildə imzalanmış Anlaşma Memorandumunu qeyd edib. Bildirib ki, o vaxtdan bəri ölkəmiz Avropa İttifaqına qaz təchizatını səkkiz milyard kubmetrdən on üç milyard kubmetrə qədər artırıb. Dövlətimizin başçısı bunun Azərbaycanın ixracının demək olar ki, yarısını təşkil etdiyini deyib. Prezident İlham Əliyev qaz təchizatını artırmağı planlaşdırdığımızı bildirib, bu xüsusda yeni yataqların kəşf edildiyini vurğulayıb.

Dövlətimizin başçısı deyib ki, bu gün yeddi ölkənin ərazisindən keçən və Bolqarıstandakı interkonnektorlar vasitəsilə Avropa İttifaqının on ölkəsini təchiz edən, Bakıdan İtaliyaya qədər uzanan boru kəməri tamamilə doludur. Prezident İlham Əliyev onu genişləndirməyin vacibliyinə toxunub, Yunanıstana və İtaliyaya gedən kəmərin ötürmə gücünün 10 milyard kubmetrdən 11,2 milyard kubmetrə qədər artırdığımızı bildirib.

Prezident İlham Əliyev Azərbaycanın emal müəssisələrinin ümumi istehsal həcminin 30 milyon ton olduğunu diqqətə çatdırıb.

AZƏRTAC-ın materialları əsasında

Bakıda “17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası” keçirilib







Bakı şəhərində “17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası”nın Təlim-Tədris üzrə işçi qrupunun fəaliyyəti ilə bağlı seminar keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, seminarda hər iki ölkə ordularının komandanəzarət, radioelektron mübarizə və kibertəhlükəsizlik qabiliyyətlərinin inkişaf etdirilməsi, həmçinin göstərilən sahələrdə dünyada cərəyan edən hadisələrin təqib edilməsi məqsədilə ətraflı müzakirələr aparılıb.

Seminar çərçivəsində müxtəif mövzular üzrə çıxış edən məruzəçilər mövcud fəaliyyət mexanizmləri barədə məlumat verib, iştirakçıları maraqlandıran sualları cavablandırıb.

Tədbirin sonunda tərəflər arasında “17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası”nın Təlim-Tədris üzrə yekun protokolu imzalanıb, qarşılıqlı hədiyyələr təqdim olunub.

Qeyd edək ki, bu cür əməkdaşlıq hər iki ölkə ordularının döyüş hazırlığının artırılmasına, peşəkar təcrübə mübadiləsinin genişləndirilməsinə və təlim-tədris üzrə hərbi əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycan və Tacikistan Müdafiə nazirliklərinin nümayəndə heyətlərinin görüşü keçirilib



“Azərbaycan və Tacikistan Müdafiə nazirlikləri arasında 2026-cı il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq Planı”na əsasən “PUA bölmələrinin, ordu dronlarının və dron operatorların hazırlığı sahəsində təcrübə mübadiləsi” mövzusunda görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə qonaqlara Azərbaycan Ordusunun PUA sahəsində mövcud imkanları və perspektivləri barədə təqdimatlar nümayiş etdirilib.

Azərbaycan Ordusunun Vətən müharibəsi və sonrakı dövrlərdə keçirilən əməliyyatlar zamanı bu sahədə əldə etdiyi uğurlar barədə danışılıb.

Tərəflər müvafiq sahənin inkişafı istiqamətində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Bakıda “Eternity-2026” təliminin açılış mərasimi keçirilib

Noyabrın 12-də Azərbaycan, Gürcüstan və Türkiyə nümayəndələrinin iştirakı ilə ölkəmizdə “Eternity-2026” kompüter dəstəkli komanda-qərargah təliminin açılış mərasimi keçirilib.

Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində keçirilən təlimə Azərbaycan Ordusunun hərbi qulluqçuları ilə yanaşı, “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Mühafizə departamentinin və Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin şəxsi heyəti də cəlb olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə hər üç ölkənin azadlığı uğrunda canından keçənlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan, Gürcüstan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Açılış mərasimində çıxış edən general-mayor Vüqar Əliverdiyev tədbir iştirakçılarına Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun salamlarını çatdıraraq, qarşıya qoyulan tapşırıqların icrasında uğurlar arzulayıb. Təlimə hər üç ölkədən 200-dən çox şəxsi heyətin cəlb olunduğunu qeyd edib.

Çıxışlardan sonra təlimin məqsədi, qarşıya qoyulan tapşırıqlar, həmçinin aidiyyəti dövlət qurumlarının fəaliyyəti haqqında mərasim iştirakçılarına geniş məlumat verilib.



Bildirilib ki, mütəmadi keçirilən təlimin məqsədi regional iqtisadi layihələrin və strateji obyektlərin mühafizəsi üzrə birgə fəaliyyətlərin koordinasiyasını təkmilləşdirmək, eləcə də iştirakçıların təbii resursların daşınması zamanı təhlükəsizliyin təmin edilməsinə dair əməliyyat və analitik bacarıqlarını inkişaf etdirməkdir.

Qeyd edək ki, qarşılıqlı fəaliyyətin və təcrübə mübadiləsinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən “Eternity-2026” kompüter dəstəkli komanda-qərargah təlimi noyabrın 20-dək davam edəcək.

Azərbaycan-Türkiyə-Gürcüstan MMU-ları rektorlarının üçtərəfli görüşü keçirilib







Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə və Gürcüstanın müdafiə nazirlikləri arasında mövcud olan qarşılıqlı əməkdaşlıq planlarına əsasən, Bakı şəhərində üç ölkənin Milli Müdafiə Universitetlərinin (MMU) rektorlarının rəhbərlik etdikləri nümayəndə heyətləri arasında üçtərəfli görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlar Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edib, şəhidlərin məzarları üzərinə gül dəstələri qoyaraq onların xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra MMU-nun rektoru general-mayor Gündüz Əbdülov nümayəndə heyətləri ilə görüşüb. Görüşdə Azərbaycanın hərbi təhsil sistemində həyata keçirilən islahatlar və onların müsbət nəticələrindən danışılıb, beynəlxalq təcrübə nəzərə alınmaqla, tətbiq edilən yeniliklər barədə qonaqlara ətraflı məlumat verilib.

Görüş zamanı üç ölkənin hərbi təhsil müəssisələri arasında mövcud əməkdaşlığın inkişafında bu cür üçtərəfli görüşlərin əhəmiyyəti vurğulanıb. Həmçinin qarşıdakı illərdə hərbi təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, təcrübə mübadiləsinin intensivləşdirilməsi və birgə fəaliyyətin davamlılığının təmin edilməsi məqsədilə üçtərəfli tədbirlərin planlaşdırılması ilə bağlı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində nümayəndə heyətləri MMU-nun tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət ediblər.

Nümayəndə heyətlərinin rəhbərləri institutun "Şərəf kitabı"na ürək sözlərini yazaraq göstərilən qonaqpərvərliyə görə minnətdarlıqlarını bildiriblər.





Disput

Yaddaşlara həkk olunmuş Qarabağ müharibəsi

Gənclərin ordu sıralarında təmsil olunması, onların ordu ilə bağlı düşüncələri maraq doğurandır. Altı il əvvəl ordumuzun qazandığı tarixi Zəfər gənclərin söhbətlərinin əsas mövzusudur. Müharibələr xalqları, ölkələri inkişafdan, tərəqqidən geri salıb. Buna görə də yüksəlişə can atan xalqlar müharibələrin əleyhinə olublar. Xalqımız da tarixən sülh, əmin-amanlıq içində yaşamaq istəyib. Lakin bizi zorla savaşa cəlb etsələr də, işğalçılar sonda layiq olduqları cavabı alıblar.



Ordumuzda xidmət edən gənclər ölkəmizin son yarım əsrlik tarixini dərindən öyrənməyə çalışırlar. İkinci Qarabağ müharibəsinin başlanma səbəbləri, ermənilərin Azərbaycanın ərazi bütövlüyünə qarşı təcavüzünün necə baş verdiyi, 6 il əvvəl baş verən müharibənin təhlili maraq doğurur. Baş leytenant Kamal Məmmədov siniflərdə, söhbətgah yerlərində əsgərlərlə bu mövzuda tez-tez görüşür. O deyir: "Əsgərlər İkinci Qarabağ müharibəsi ilə bağlı daha geniş məlumatlar öyrənmək istəyirlər. Amma əsgərlərin arasında ali təhsilli gənclər də var. Onlar hadisələrlə bağlı bir qədər geniş təsəvvürlərə malikdirlər. Əsgərlər daha çox orta məktəbdə oxuduqları tarixə əsaslanırlar. İkinci Qarabağ müharibəsi zamanı igid oğullarımızın göstərdikləri şücaətlər onların söhbətlərinin əsas mövzularıdır".

Əsgər Dünyamin Məmmədzadə Xəzər Universitetini bitirib. İxtisasca psixoloqdur. Tərtər rayonundan olduğu üçün Qarabağ müharibəsi ilə bağlı məlumatlar onda bir qədər fərqlidir. O, təkcə dərsliklərlə, mətbuatda yazılanlarla kifayətlənmir. Tərtər rayonu həm Birinci, həm də İkinci Qarabağ müharibələri illərində döyüşlərin qaynar nöqtəsi olub. Dünyamin hadisələri valideynlərinin, yaxınlarının, dostlarının dilindən eşidib. Tərtərlilərin müharibə zamanı çox böyük əziyyət çəkdiyini dostlarına danışır. Dünyamin deyir ki, "İkinci Qarabağ müharibəsi başlayanda əhali şəhəri tərk etmək məcburiyyətində qalıb. Çünki ermənilər uzaqmənzilli raketlərdən, artilleriya qurğularından Tərtər şəhərini və döyüş bölgəsinə yaxın kəndləri vururdu. Belə bir anda sakinlər evlərini tərk etməyə bilməzdilər. Bu da müvəqqəti oldu. Azərbaycan Ordusunun bölmələri qısa müddətdə düşmənin əsas atəş nöqtələrini aşkar edərək susdurdu. Sonra isə evlərini tərk etmiş sakinlər öz doğma ocaqlarına qayıtdılar".

Tərtərin qəhrəman döyüşçülərindən söz açan əsgər Dünyamin Məmmədzadə onu da vurğuladı ki, "Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucov Birinci Qarabağ müharibəsində düşmənlə üzbəüz döyüşüb. Gözündə qorxu olmayan döyüşçü olub. Neçə-neçə düşməni döyüş meydanında məhv edib. Bu gün də onun qəhrəmanlığından tərtərlilər ağızdolu danışırlar".

Baş leytenant Kamal Məmmədov əsgərin dediklərinə əlavə olaraq deyir: "Birinci Qarabağ müharibəsi yenicə müstəqillik qazandığımız dövrdə başladı. Ordumuz tam formalaşmamışdı. Ölkə daxilində anarxiya, özbaşınalıq hökm sürürdü. Xalqın vətənpərvər oğulları cəbhəyə könüllü gedib düşmənə qarşı döyüşürdülər. Onlar pərakəndə döyüşürdülər və bir çox döyüşlərdə qalib gəlirdilər. Buna baxmayaraq düşmən daha tədbirli idi. Qarabağı və daha 7 rayonu işğal etdi. Əgər o zaman Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətə qayıtmasaydı, Azərbaycan indiki müstəqil dövlət olmazdı".

Əsgər Nizami Ələsgərov söhbətə qoşulur. "O zaman ordu vahid komandanlıq tərəfindən idarə olunmurdu. Döyüşən bölmələr pərakəndə idi. Köhnə döyüşçülərdən eşitmişəm ki, onlar istəyən vaxtı döyüşə gedirdilər, istəməyəndə isə yox. Bu cür döyüşməklə qələbə qazanmaq mümkün deyildi. Vəziyyətin ağır olduğunu görən dövlətimizin başçısı Heydər Əliyev orduda ciddi islahatlar apardı. Özünümüdafiə dəstələrini ləğv etdi. Vahid rəhbərliyə tabe olan ordunu yaratdı. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Ali Baş Komandan İlham Əliyev Qarabağın və daha 7 rayonun ermənilər tərəfindən işğal edilməsi ilə barışmaz mövqeyini ilk gündən bəyan elədi. Qarşı tərəfə dəfələrlə bildirdi ki, işğal etdikləri ərazilərdən qoşunlarını geri çəksin. Əks halda müharibə qaçılmaz olacaq. Lakin ermənilər buna əhəmiyyət vermədilər. Heç vaxt ərazimizin iyirmi faizini itirməyə razı olmazdıq. Dövlətimizin başçısı sülh danışıqları aparmaqla yanaşı, ordumuzun döyüş hazırlığının da artırılması istiqamətində mühüm addımlar atdı".

Əsgərlərin zabit Kamal Məmmədovla Qarabağ müharibəsi və ordu quruculuğu barədə görüşdə hər kəs öz düşüncələrini, müharibənin baş verməsi ilə bağlı fikirlərini bildirirdilər. Onlar qeyd edirlər ki, torpaqlarımızı azad etmək üçün müharibə qaçılmaz idi. Düşmən asanlıqla işğal etdiyi torpaqları bizə qaytarmayacaqdı. Necə ki qaytarmadı da.

Əsgər Seymur Mustafayev Goranboy rayonundandır. Goranboy rayonundan düşmənlə təmas xətti keçirdi. Zamanında burada da ağır döyüşlər gedib. Ermənilərin işğal etmək istədikləri rayonlardan biri olub. Goranboylular düşmənə ciddi müqavimət göstərdilər. Seymur deyir: - Goranboyda həmişə vətənpərvər oğullar düşmənə qarşı qətiyyətlə döyüşüblər. 44 gün davam edən müharibə zamanı rayonumuzun yüzlərlə gənci səfərbərlik və hərbi xidmətə çağırış üzrə rayon şöbəsinə gəlmişdi. Bu hal təkcə Goranboyda yox, ölkəmizin bütün rayonlarında baş vermişdir. O zaman uşaq olsam da istəyirdim ki, hərbi xidmətə yazılım. Bu cür vətənpərvərliyin nəticəsi idi ki, gənclərimiz inamla döyüş meydanına atılırdılar. Çünki həmin ərəfədə bir çox cəsur döyüşçülərimiz şəhid olublar. Şəhidlərin qanı yerdə qalmamalı, torpaqlarımız işğaldan azad olunmalı idi.

Zabit Kamal Məmmədov əsgərlərin bu cür vətənpərvər ruhda olmalarından qürur duyur. Bu cür yüksək ruhda əsgəri olan Vətən torpaqları heç vaxt işğal altında qala bilməzdi. Əsgərlər döyüş ruhu ilə kifayətlənmirlər. Onlar yiyələndikləri ixtisas üzrə bilik və bacarıqlarına dərindən yiyələnirlər. Zabitin əsgərlərlə döyüş ruhunda olan növbəti maraqlı söhbəti daha da uzana bilərdi. Əsgərlərlə bu cür görüşlərin tez-tez olduğunu deyən zabit Kamal Məmmədov vaxtı az olduğu üçün söhbətin davamına növbəti görüşdə davam edəcəyini bildirir.

Bəxtiyar ƏLİYEV
"Azərbaycan Ordusu"

Fiziki hazırlıq

“Məşqlər zamanı hərbi qulluqçular öz nəticələrini yaxşılaşdırmağa çalışırlar”

(Əvvəli 1-ci səhifədə)

Fiziki hazırlıq məşğələlərində iştirak edən hərbi qulluqçulardan biri gizir Natiq İsmayıl oğlu Süleymanzadədir. Əslən Qərbi Azərbaycandan olan Natiq Süleymanzadə 2017-ci ildən hərbi xidmətdədir. Vətən müharibəsində və antiterror əməliyyatında iştirak edən hərbi qulluqçu Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəlpə yarası alıb. Döyüşlərdən sonra müvafiq sərəncamlara əsasən “Suqovuşanın azad olunmasına görə”, “Laçının azad olunmasına görə” və “Şücaətə görə” medalları ilə təltif edilib.

Gizir Natiq Süleymanzadə fiziki hazırlığın hərbi qulluqçunun xidmətində və döyüş fəaliyyətində mühüm rol oynadığını bildirir: “Fiziki hazırlıq hər bir hərbi qulluqçu üçün vacibdir. Xidmət zamanı elə vəziyyətlər yaranır ki, fiziki dözümlülük və iradə əsas rol oynayır. Döyüşlərdə iştirakım mənə bir daha göstərdi ki, hərbçi istənilən çətinliyə hazır olmalıdır. Buna görə də məşğələlərə məsuliyyətlə yanaşıram və fiziki hazırlığımı daim təkmilləşdirməyə çalışıram”.



Fiziki hazırlığa cəlb olunmuş digər hərbi qulluqçular - baş çavuş İsmayıl Əhədli, kiçik çavuşlar Səməndər Baxışov, Ülfət Məmmədzadə, Zeyəddin Yusubov və Rəcəb Daşdəmirov da məşğələlərdə fəal iştirak edirlər. Onların hazırlıq prosesində əsas diqqət fiziki göstəricilərin yüksəldilməsinə, dözümlülüyün artırılmasına və fərdi imkanların inkişafına yönəldilir. Məşqlər zamanı hər bir hərbi qulluqçu öz nəticələrini yaxşılaşdırmağa çalışır, eyni zamanda, komanda yoldaşlarının uğurlarına dəstək olur.

Bu hazırlıq prosesində davamlılıq və məsuliyyət xüsusi əhəmiyyət daşıyır. Fiziki göstəricilərin yüksəldilməsi müntəzəm məşqlər, düzgün yanaşma və şəxsi iradə tələb edir. Hərbi qulluqçular üçün məşğələlər həm də öz imkanlarını qiymətləndirmək, fiziki cəhətdən zəif tərəflərini müəyyənləşdirmək və onların üzərində işləmək imkanı yaradır. Fiziki hazırlıq müəyyən normativlərin yerinə yetirilməsi ilə məhdudlaşmır. İdman hərbi qulluqçuda özünəinamın, iradənin, məsuliyyətin və çətinliklərə qarşı mübarizə əzminin formalaşmasına da xidmət edir. Xüsusilə kollektiv məşqlər zamanı yaranan sağlam rəqabət hər kəsi daha yaxşı nəticə göstərməyə həvəsləndirir. Orduda fiziki hazırlığın davamlı inkişaf etdirilməsi şəxsi heyətin sağlamlığının qorunmasına, xidmət qabiliyyətinin yüksəldilməsinə və döyüş tapşırıqlarının icrasına hazırlığın möhkəmləndirilməsinə imkan verir. Hər bir məşq hərbi qulluqçunun öz imkanlarını genişləndirməsi, fiziki göstəricilərini yaxşılaşdırması və peşəkar hazırlığını artırması baxımından əhəmiyyətlidir.

Möhkəm fiziki hazırlıq, sarsılmaz iradə və yüksək döyüş ruhu hərbi qulluqçunun əsas keyfiyyətlərindəndir. Bu keyfiyyətlərin gündəlik məşğələlərdə inkişaf etdirilməsi Azərbaycan Ordusunun şəxsi heyətinin istənilən şəraitdə qarşıya qoyulan vəzifələri yerinə yetirməyə hazır olmasının mühüm şərtlərindən biridir.

Leytenant
Tamilla HÜSEYNLİ
“Azərbaycan Ordusu”







Əsgər dostluğu

“Hərbi xidmətdə dostluq insana əlavə güc verir”

Hərbi xidmət insanı yalnız fiziki cəhətdən möhkəmləndirmir, həm də onun xarakterini formalaşdırır, məsuliyyət, dözümlülük və çətin anlarda yanında olan insana güvənmək kimi keyfiyyətlər aşılayır. Müxtəlif bölgələrdən hərbi xidmətə çağırılan gənclər eyni məqsəd ətrafında birləşərək zamanla bir-birinin sevincinə şərik, çətinliyinə dayaq olurlar. Beləcə, hərbi xidmət illəri onların yaddaşında yalnız xidmət günləri ilə deyil, həm də möhkəm silahdaşlıq və səmimi dostluq münasibətləri ilə qalır.

Əsgərlər Mirsahib Əhmədov və Ömər Həşimovun dostluğu da məhz belə bir mühitdə formalaşıb. Ölkəmizin müxtəlif rayonlarından olan iki gənci birləşdirən əsas dəyərlər Vətənə sevgi, Hərbi Anda sədaqət və üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirmək əzmidir. Onlar üçün hərbi xidmət təkcə Vətən qarşısında borcun yerinə yetirilməsi deyil, həm də həyatlarının ən yaddaqalan dostluqlarından birinin başlanğıcıdır.

Söhbət zamanı Cəlilabad rayonunda anadan olan Mirsahib Əhmədov bildirdi ki, hərbi xidmətin ilk günlərindən insan yeni mühitə uyğunlaşmağa, kollektivin bir parçası olmağa çalışır. Bu prosesdə səmimi münasibətlərin və qarşılıqlı dəstəyin xüsusi əhəmiyyəti var. Onun sözlərinə görə, əsgər dostluğu adi dostluq münasibətlərindən fərqlənir. Çünki burada insanlar bir-birini yalnız xoş günlərdə deyil, çətin və məsuliyyətli anlarda da daha yaxından tanıyır, xarakterlərinin müxtəlif xüsusiyyətlərini görürlər.

- Hərbi xidmətdə dostluq insana əlavə güc verir. Bəzən yorğun olduğun, doğmaların üçün darıxdığın anlar olur. Belə vaxtlarda yanında səni anlayan, ruhlandıran bir silahdaşının olması çox dəyərlidir. Ömərlə münasibətimiz də qarşılıqlı hörmət və etimad üzərində qurulub. Bir-birimizə kömək edir, xidmətlə bağlı təcrübəmizi bölüşürük. Məncə, əsl dostluq məhz çətin anlarda özünü göstərir, - deyə Mirsahib fikirlərini bölüşdü.

Ağdaş rayonunda anadan olan əsgər Ömər Həşimov isə qeyd edir ki, hərbi xidmət insanın həyatına yeni dostlar qazandırmaqla yanaşı, onun insanlarla münasibətlərinə də fərqli çalarlar qatır. Burada hər kəs eyni qayda-qanunlara əməl edir, Vətən qarşısında eyni məsuliyyəti daşıyır. Bu isə əsgərlər arasında səmimiyyətin, qarşılıqlı anlayışın və möhkəm bağlılığın yaranmasına zəmin yaradır.

- Mirsahiblə dostluğumuz xidmət müddətində daha da möhkəmlənib. Bir-birimizin xarakterinə bələd olmuşuq. Hərbi xidmətdə hər kəs öz vəzifəsini məsuliyyətlə yerinə yetirməli, eyni zamanda, xidmət yoldaşlarına dəstək olmalıdır. Dostunun uğuruna sevinmək, ehtiyac duyduğu anda ona kömək etmək, çətinliklə qarşılaşanda ruhdan düşməsinə imkan verməmək vacibdir. Biz də çalışırıq ki, hər zaman bir-birimizin yanında olaq, - deyə Ömər bildirdi.



İşğaldan azad olunan ərazilərdə xidmət etmək hər iki əsgərin həyatında xüsusi yer tutur. Möhtəşəm dağları, füsunkar təbiəti və zəngin tarixi ilə seçilən bu diyarın hər qarışı Azərbaycan xalqı üçün əzizdir. Uzun illər işğal altında qalan, həsrətində olduğumuz bu torpaqlarda bu gün Azərbaycan əsgərinin xidmət aparması qürurverici hissdir. Burada Vətənin keşiyində dayanmaq, dövlətimizin təhlükəsizliyinin təmin olunmasına töhfə vermək hər bir hərbi qulluqçu üçün böyük şərəfdir. Əsgər Ömər Həşimov söhbət əsnasında 8 Noyabr - Zəfər Gününün onlar üçün ifadə etdiyi mənaya da toxundu. Bildirdi ki, 2020-ci ildə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Qələbə hər bir azərbaycanlının qəlbində qürur hissi yaradıb. Bu gün həmin Qələbənin nəticəsi olaraq işğaldan azad edilmiş ərazilərdə xidmət etmək isə bu qüruru daha da artırır.

- Burada xidmət etmək bizim üçün xüsusi əhəmiyyət daşıyır. Vaxtilə yalnız xəyallarımızda canlandırdığımız bu torpaqlarda indi Azərbaycan əsgəri kimi xidmət edirik. Burada dayanarkən Vətən müharibəsində şəhidlərimizin göstərdiyi qəhrəmanlığı, döyüşçülərimizin fədakarlığını düşünürük. Onların bizə əmanət etdiyi torpaqları qorumaq hər birimizin borcudur. Biz qalib xalqın, qalib dövlətin nümayəndələriyik. Biz qalib ordunun əsgərləriyik! Bu sözləri demək böyük qürur olmaqla yanaşı, həm də üzərimizə düşən məsuliyyəti bir daha xatırladır, - deyə Ömər vurğuladı.

Mirsahib də həmsöhbətinin fikirlərinə qoşularaq bildirdi ki, Zəfər Gününün hər il qeyd olunması xalqımızın qəhrəmanlıq salnaməsini xatırlamaq, şəhidlərimizin əziz xatirəsini ehtiramla yad etmək və ordumuzun qüdrətini bir daha dərk etmək baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, bu günün əsgəri olmaq yalnız qürur deyil, həm də tarixi Qələbənin məsuliyyətini daşımaq deməkdir. Hər bir hərbi qulluqçu öz xidməti ilə bu etimadı doğrultmağa çalışmalıdır.

Müsahiblərimizlə söhbət zamanı aydın olur ki, onların dostluğunda səmimiyyət, qarşılıqlı hörmət və etibar mühüm yer tutur. Hərbi xidmətin gündəlik qayğıları, birgə yaşanan çətinliklər və əldə edilən uğurlar bu münasibətləri daha da möhkəmləndirir. Birinin digərinə verdiyi kiçik bir tövsiyə, vaxtında göstərdiyi kömək, ruhlandırıcı sözü bəzən xidmətin gərginliyini unutdurur. Belə münasibətlər əsgərlərin mənəvi cəhətdən möhkəmlənməsinə, kollektivdə sağlam psixoloji mühitin formalaşmasına da müsbət təsir göstərir. Onlar inanırlar ki, hərbi xidmət başa çatdıqdan sonra da bu günlərin xatirəsi və qazandıqları dostluq qorunub saxlanılacaq. İşğaldan azad olunmuş ərazilərdə keçən günlər, birlikdə yaşadıqları anlar, Vətən qarşısında daşıdıqları məsuliyyət və qazandıqları təcrübə ömürlərinin unudulmaz səhifələrindən birinə çevriləcək.

Bu iki gəncin işğaldan azad olunan torpaqlarımızda eyni amal uğrunda birləşməsi Azərbaycan Ordusunda hökm sürən birlik və qardaşlıq mühitinin bariz nümunəsidir. Onları doğmalaşdıran yalnız hərbi xidmət deyil, həm də müqəddəs Vətən sevgisidir. Bu gün Mirsahib və Ömər kimi minlərlə gənc Azərbaycan əsgəri dövlətimizin təhlükəsizliyinin qorunması naminə üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir.

Emil MURADLI
“Azərbaycan Ordusu”

Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

Mövzu: Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Zəfər salnaməsi, antiterror əməliyyatı ilə Vətənimizin ərazi bütövlüyümüzün tam bərpa olunması.

Suallar:

1. Qələbəyə aparan liderlik keyfiyyətləri.

2. Diplomatik mübarizənin şanlı Zəfər yürüşündə rolu.

3. Ordu quruculuğundakı nailiyyətlərin məntiqi nəticəsi.

4. Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyəti.

Qələbəyə aparan liderlik keyfiyyətləri

Xalqların dünyada nüfuzunu artıran yalnız onların maddi-mədəni sərvətləri deyil, həm də mütərəqqi ideyaları ilə tarixi proseslərə mühüm təsir göstərən şəxsiyyətləridir. Onların seçdiyi yol milli inkişaf strategiyasının əsasında dayanır və təmsil etdikləri ölkələrin dünya birliyində özünə layiqli yer tutmasını təmin edir. Belə şəxsiyyətlərdən biri, müstəqil Azərbaycan dövlətinin banisi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevdir. Onun məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində 22 il ərzində Azərbaycan dövlətinin bütün sahələrində əldə etdiyi uğurlar "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Ulu Öndər Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini sübut edir.

Hər bir xalqın genetik yaddaşını möhkəmləndirmək, mənəvi irsini və əxlaqi dəyərlərini qoruyub saxlayaraq gələcək nəsillərə ötürmək kimi çətin missiyanın yerinə yetirilməsi uzaqgörən liderlərin fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Onlar həmişə ali məqsədlər uğrunda mübarizənin önündə gedərək, göstərdikləri tarixi fəaliyyətlə rəhbərlik etdikləri dövlətlərin mütərəqqi yolla inkişafına nail olurlar. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın milli-mənəvi bütövlüyünün təmin olunmasında özünəməxsus yer tutan milli şüurun inkişafını daim diqqət mərkəzində saxlayır ki, bu da təsadüfi deyildir. Çünki milli şüur hər bir insanın mənsub olduğu xalqa bağlılıq hisslərini möhkəmləndirməklə milli özünüdərketmədə ciddi rol oynayır.

Dövlət başçısı İlham Əliyev bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən lider kimi xalqımızın böyük rəğbətini qazanıb. Onun dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və prosesləşin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və sərişteli idarəetmə bacarığından irəli gəlir. Milli birliyin təmin olunması, müxtəlif ictimai-siyasi qüvvələr arasında etimad mühitinin yaradılması istiqamətində Müzəffər Ali Baş Komandanın atdığı addımlar ictimai fikirdə onun haqqında uzaqgörən və ədalətli lider obrazını daha da möhkəmləndirir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin səmərəli iş qabiliyyəti, fəallıq və təşəbbüskarlıq kimi keyfiyyətlərə malik olması, ortaya çıxan problemlərin obyektiv və subyektiv səbəblərini dərindən, hərtərəfli araşdırmasında, ölkənin inkişafını nəzərdə tutan proqramlar hazırlayaraq həyata keçirməsində mühüm əhəmiyyət daşıyır. Onun qəbul etdiyi qərarların, yerinə yetirdiyi vəzifələrin milli və qlobal əhəmiyyəti həm yerli, həm də beynəlxalq ictimai rəydə yüksək qiymətləndirilir.

Diplomatik mübarizənin şanlı Zəfər yürüşündə rolu

Böyük Zəfərin əldə olunmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət və Ermənistanla Azərbaycan arasında mövcud olmuş münaqişənin həlli istiqamətində apardığı ardıcıl, qətiyyətli diplomatik mübarizə ilə sıx şəkildə bağlıdır. Ötən illər ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi və milli maraqlarının təmin olunması sahəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu ölkəmizə beynəlxalq aləmdə çoxlu dost dövlətlər və etibarlı tərəfdaşlar qazandırıb.

Azərbaycanın Cənubi Qafqazın aparıcı dövləti kimi dünya birliyində mövqeyi daha da möhkəmlənib. Digər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasətinin əsas prinsiplərindən birini təşkil edir. Bu siyasətin nəticəsində ölkəmizlə dünya dövlətləri arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq möhkəmlənir, Azərbaycan vətəndaşlarının firavan və təhlükəsiz şəraitdə yaşayışı təmin olunur.

Azərbaycan Respublikası Prezidentinin apardığı xarici siyasət ölkəmizi dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa Birliyi, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Bununla yanaşı, nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın uğurlu diplomatiyasının göstəricisidir. Uğurlu xarici siyasət nəticəsində əldə olunmuş nailiyyətlər Azərbaycanın müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafına mühüm təsir göstərir. Milli maraqlara əsaslanan xarici siyasətin aparılması beynəlxalq ictimaiyyətdə Azərbaycana böyük inam və etimad qazandırır.

Ermənistanla Azərbaycan arasında mövcud olmuş münaqişənin həllinə nail olmaq üçün ötən illər ərzində fəal və çevik xarici siyasət həyata keçirilib. Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumatlar çatdırılıb, Ermənistanın yalançı təbliğatı ildən-ilə fiaskoya uğrayıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ermənistanla Azərbaycan arasında mövcud olmuş münaqişənin beynəlxalq hüquqi normalar çərçivəsində nizamlanmasına çalışıb, Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi kimi beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirib, Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə, dünya dövlətlərini isə problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb.

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Müzəffər Komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi oldu.

Ordu quruculuğundakı nailiyyətlərin məntiqi nəticəsi

2003-cü ildən etibarən ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, Azərbaycan Ordusunun hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Ermənistanla Azərbaycan arasında mövcud olmuş münaqişənin aqibəti ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi. Qısa müddət ərzində görülmüş işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer aldı. Həmçinin Azərbaycanda güclü müdafiə sənayesi quruldu. Bu gün Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin, zabit-əsgər heyətinin yüksək hərbi hazırlığa və vətənpərvərlik əhvali-ruhiyyəsinə malik olmasının nəticələri özünü həm Vətən müharibəsində, həm də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Qarabağda keçirilən antiterror əməliyyatında parlaq şəkildə göstərdi. Şanlı ordumuz Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərini erməni qəsbkarlarından azad etdi. Sübut olundu ki, Azərbaycan müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrə malikdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində "Dəmir yumruq" əməliyyatı ilə Ermənistan ordusunu darmadağın edərək onların kapitulyasiya aktına imza atmağa məcbur edən Cənubi Qafqazın ən qüdrətli Azərbaycan Ordusu 23 saata Qarabağ iqtisadi rayonunda antiterror əməliyyatı keçirməklə, separatçıları diz çökdürməklə yanaşı, Azərbaycan xalqının son 200 il ərzində qarşılaşdığı və təkcə azərbaycanlılara deyil, bütün bölgəyə təhlükə yaradan, miqyasından dəfələrlə böyük bir problemi həll etdi. Separatizmin qaynaqlandığı iddiaları mif və əsatirləri sıradan çıxartmaqla, Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya göstərdi.

Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyəti

Son 22 ildə Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasət ölkəmizi yeni inkişaf mərhələsinə çıxardı. Dövlət başçısı İlham Əliyev hələ 2003-cü ildə keçirilən prezident seçkilərindən sonra andiçmə mərasimi zamanı söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm və Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam" fikrinə sadiqliyini öz əməlləri ilə sübuta yetirdi. 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunması üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və güclü dövlət konsepsiyasını reallaşdırmağa nail oldu.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq məqsədi ilə 27 sentyabrda bütün cəbhə boyu "Dəmir yumruq" əməliyyatı ilə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında əkshücuma keçən Cənubi Qafqazın ən qüdrətli ordusu şanlı ordumuz 1990-cı illərin əvvəlində baş verən Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğala məruz qalmış 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra, noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Hərbi müstəvidə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi. 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da Üçtərəfli Bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

2023-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə aniterror əməliyyatına başlanılmışdır. Cəmi 23 saat davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmiş, Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2025-ci il avqustun 8-də Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin paraflanmasına dair bəyannamənin imzalanmasından sonra mətbuata verdiyi müsahibədə bildirmişdir:

Yalnız 2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistan artıq reallıqlarla barışmalı oldu. Ondan sonra, demək olar ki, fəal danışıqlar prosesi başlamışdır. Artıq neçə aydır tərəflər bəyan etmişdilər ki, sülh sazişinin bütün maddələri razılaşdırılıb. Hesab edirəm ki, bu, Cənubi Qafqaz üçün çox önəmli tarixi məsələdir. Əminəm ki, bu gün Ağ Evdə paraflanan sülh sazişi artıq bölgəyə sülh gətirib.

Biz torpağımız uğrunda sonuncu azərbaycanlı qalana qədər olsa da döyüşməliyidik. Çünki bu işğal tarix boyu üzləşdiyimiz çoxsaylı haqsızlıqların ən dəhşətlilərindən biri idi. Həm Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev, həm də onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə demişdirlər ki, "...biz bu problemin həllini gələcək nəsillərin - günahsız övladlarımızın, nəvə-nəticələrimizin öhdəsinə buraxa bilmərik". Bəli, bu problem məhz Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısının icrası nəticəsində, "Heydər Əliyev İli"ndə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkədə siyasi hakimiyyətə gəlməsinin 20 illiyi ərəfəsində, Azərbaycan xalqının öz iqtidarı ətrafında monolit birlik yaratmasından, ordumuzun inkişafının "Dəmir Yumruğ"a çevrilməsindən sonra həll edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq üçün müstəqil dövlət yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin bütün mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, mərhumiyyətə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməyib. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

İdeoloji Təminat İdarəsi

Şərqdə ilk qadın təyyarəçi



Tarixən bütün dünyada və dünyanın hər yerində cərəyan edən hadisələrdə qadınlar mühüm mövqeyə malik olublar. Elə müharibələrdə də qadınlar kişilərdən öz şücaəti, qorxmazlığı ilə geridə qalmayıblar. Azərbaycanda da qadına münasibət həmişə yüksək olub. Qadın anadır, bacıdır, həyat yoldaşıdır və eyni zamanda, qosqoca bəşəriyyətdə yaradıcılıqla məşğul olan müqəddəs bir varlıqdır. Azərbaycan qadını XX əsrin əvvəllərindən - Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründən kişilərlə çiyin-çiyinə, bərabər hüquqlu vətəndaş kimi cəmiyyətdə daha çox fəal olub. Ataların gözəl bir deyimi var: "Aslanın erkəyi, dişisi olmaz". Azərbaycan tarixində nümunə olaraq neçə-neçə qadının adını çəkə bilərik. Adına dastanlar yazılan, əfsanəyə çevrilmiş hünərvər, mərd qadınlardan biri də Leyla Məmmədbəyovadır. Leyla Ələsgər qızı Məmmədbəyova Azərbaycanda, Qafqazda, həmçinin bütün Cənubi Avropada və Yaxın Şərqdə ilk qadın təyyarəçi kimi adını tariximizin şanlı səhifəsinə qürurla yazıb.

1909-cu il sentyabrın 17-də dünyaya göz açan Leyla Məmmədbəyova ilk əmək fəaliyyətinə 1930-cu ildən başlayıb. O, sənət təhsilini Bakı aeroklubunda alıb və ilk uçuşunu 1931-ci ildə yerinə yetirib. Hələ ötən əsrin 30-cu illərinin əvvəlində Moskvada nəşr olunan "СССР на стройке", yəni, "SSRİ tikintidə" jurnalında Leyla adlı gənc qızın fotosu dərc edilmiş və fotonun altında bu sözlər yazılmışdı: "Şərqdə ilk qadın təyyarəçi". Leyla həmin dövrün canlı əfsanəsi idi. Hələ çadradan başlarını çıxarmağa cəsarət etməyən qadınlar ona tamaşa etməyə gəlirdilər. L.Məmmədbəyova fabrik və zavodlarda çalışan gənc qadın işçilərin qarşısında çıxışlar edirdi.

Təhsilini 1932-ci ildən Moskvada davam etdirən L.Məmmədbəyova 1933-cü il martın 17-də Moskvanın Tuşino aerodromunda U-2 təyyarəsindən paraşüt ilə atlanaraq keçmiş Sovet İttifaqında ikinci qadın paraşütçü kimi tarixə düşüb. 1934-cü ildə Cənubi Qafqaz respublikaları arasında keçirilən paraşütçülər yarışında birinci yeri qazanıb. 1941-ci ilədək artıq aviasiya mayoru olan Leyla Məmmədbəyova sonralar sənətini Bakı aeroklubunda müəllim kimi davam etdirib.

Dörd uşaq anası olan L.Məmmədbəyovanın İkinci Dünya müharibəsində iştirak etmək barədə müraciətinə imtina edilib. Aeroklubun bağlanmasına görə o, desantçı və paraşütçü kurslarını tədris etməyə icazə alıb. O, 1941-1945-ci illərdə yüzlərlə desantçı və dörd min paraşütçü hazırlayıb cəbhəyə yollayıb. Onların arasında iki nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. L.Məmmədbəyova təyyarəçi karyerasını 1949-cu ildə son uçuş ilə başa çatdırıb. Sonrakı illərdə orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyətinin Bakı filialında sədr müavini kimi çalışıb. 1961-ci ildə təqaüdə çıxıb.



İkinci Dünya müharibəsinin ağır sınaq illərində minlərlə soydaşımızın sırasında arxa cəbhədə gecə-gündüz çalışaraq Qələbəyə layiqli töhfələr bəxş edən mərd, vətənpərvər Azərbaycan qadını L.Məmmədbəyovanın şərəfli ömür yolu biz qadınlara örnəkdir. Onun adı qəlbimizdə daima yaşayır. Xalqımız L.Məmmədbəyovanın əziz xatirəsini dərin ehtiramla yad edir. Onu da qeyd edək ki, L.Məmmədbəyovanın böyük oğlu Firudin İkinci Dünya müharibəsində, kiçik oğlu Xanlar isə Birinci Qarabağ müharibəsində iştirak edib.

1989-cu ildə dünyasını dəyişən L.Məmmədbəyovaya şeirlər yazılıb. 1995-ci ildə haqqında sənədli film çəkilib. 1934-cü ildə çəkilən "İsmət" bədii filmi məhz Leyla xanıma həsr olunub.





Lalə HÜSEYNOVA
"Azərbaycan Ordusu"

Medallı igidlərimiz

"Ən böyük arzumuz torpaqlarımızın azad olunması idi"

Hərbi xidmət insanın qarşısına müxtəlif mərhələlərdə yeni vəzifələr və məsuliyyətlər qoyur. Bu yolun elə məqamları olur ki, onlar hərbi qulluqçunun yaddaşında ömürlük iz buraxır, xidmətə münasibətini müəyyənləşdirir.



2020-ci ildə Vətən müharibəsində iştirak edən, hazırda isə manqa komandiri kimi xidmətini davam etdirən hərbi qulluqçu Əli Əliağa oğlu Əlizadənin hərbi bioqrafiyasında da belə bir mərhələ var. Onun xidmət yolu ilə tanış olarkən həm döyüş illərinin, həm də bu gün daşıdığı məsuliyyətin hərbi qulluqçu üçün nə qədər əhəmiyyətli olduğunu görürük.

1993-cü ildə Füzuli rayonunda anadan olan Əli Əlizadə 2014-cü ildən hərbi xidmətdədir. Ordu sıralarına qoşulduğu vaxtdan etibarən seçdiyi peşənin tələblərini mənimsəyib, xidmət təcrübəsi qazanıb.

Hərbi qulluqçunun peşəkarlığı yalnız nəzəri biliklərlə deyil, gündəlik fəaliyyətdə qazandığı vərdişlər, intizama münasibəti və üzərinə düşən vəzifələri necə yerinə yetirməsi ilə də müəyyən olunur. Bu baxımdan, illər ərzində toplanan təcrübə onun xidmət yolunun mühüm hissəsini təşkil edir.

Həmsöhbətimin hərbi xidmətində xüsusi yer tutan hadisələrdən biri 2020-ci ildə baş verən Vətən müharibəsidir. Əli Əlizadə müharibə zamanı Füzuli və Daşaltı istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Döyüş şəraitində vəzifələrin icrası diqqət, məsuliyyət və verilən tapşırıqlara dəqiq əməl olunmasını tələb edir. Belə şəraitdə hər bir qərar mövcud vəziyyət nəzərə alınmaqla verilməli, tapşırıqlar müəyyən olunmuş qaydada və vaxtında yerinə yetirilməlidir. Müharibə şəraitində təminat məsələlərinin düzgün təşkili şəxsi heyətin fəaliyyətinin davamlılığı baxımından mühüm əhəmiyyət daşıyır. Bu işdə hərbi qulluqçuların hazırlığı, diqqəti və məsuliyyətli davranışı xüsusi rol oynayır. Çünki döyüş tapşırıqlarının yerinə yetirilməsi yalnız ön xətdə fəaliyyət göstərən şəxsi heyətin deyil, ümumi prosesin müxtəlif istiqamətlərində xidmət edən hər kəsin öz vəzifəsini düzgün icra etməsindən asılıdır. Vətən müharibəsinin iştirakçıları üçün həmin günləri xatırlamaq, ilk növbədə, qarşıya qoyulan məqsədi və bu məqsədə çatmaq naminə göstərilən səyləri yada salmaq deməkdir. Əli Əlizadənin başlıqda yer alan fikri də bu istəyin ifadəsidir: "Ən böyük arzumuz torpaqlarımızın azad olunması idi".

Doğma torpaqların işğaldan azad edilməsi arzusu müharibə iştirakçılarını birləşdirən əsas məqsədlərdən biri idi. Hərbi qulluqçuların hər biri öz vəzifəsi çərçivəsində bu məqsədə xidmət edir, üzərinə düşən tapşırıqları yerinə yetirməyə çalışırdı. Belə şəraitdə şəxsi məsuliyyətlə yanaşı, silahdaşlara etimad və ümumi işə bağlılıq da böyük əhəmiyyət daşıyırdı. Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnən Vətən müharibəsi iştirakçıların hər birinin həyatında ayrıca iz qoydu. Həmin dövrdə qazanılan təcrübə, üzləşilən çətinliklər və yerinə yetirilən tapşırıqlar onların xidmət yolunun ayrılmaz hissəsinə çevrildi. Əli Əlizadənin də müharibədə iştirakı onun hərbi xidmətinin mühüm mərhələsidir. Bu təcrübə onun sonrakı xidmətində qazandığı bilik və bacarıqlarla birlikdə hərbi qulluqçu kimi formalaşmasının bir hissəsini təşkil edir. Müsahibim Əli Əlizadənin xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əli Əlizadə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

Müharibədən sonra hərbi xidmətini davam etdirən Əli Əlizadə hazırda manqa komandiri vəzifəsində xidmət edir. Bu vəzifə ondan şəxsi heyətin fəaliyyətini təşkil etməyi, tabeliyində olan hərbi qulluqçuların hazırlığına diqqət yetirməyi və hərbi intizamın tələblərinə əməl olunmasını təmin etməyi tələb edir. Komandir üçün şəxsi heyətin hər bir üzvünün vəzifəsini bilməsi, verilən tapşırıqları düzgün anlaması və kollektiv daxilində uzlaşmış fəaliyyət göstərməsi vacibdir. Manqa komandirinin gündəlik işi yalnız tapşırıqların çatdırılması ilə məhdudlaşmır. Şəxsi heyətlə düzgün münasibət qurmaq, hazırlıq prosesində tələbkarlığı qorumaq və hərbi qulluqçuların peşəkar inkişafına diqqət yetirmək də bu vəzifənin mühüm tərəflərindəndir.

Bunun üçün komandirin özü nümunə göstərməli, intizamlı davranışı və işə məsuliyyətli münasibətilə tabeliyində olan şəxslərə təsir etməlidir. Hərbi kollektivdə qarşılıqlı etimadın möhkəmlənməsi və tapşırıqların səmərəli icrası da bu yanaşma ilə sıx bağlıdır. Vətən müharibəsində iştirak etmiş bir hərbi qulluqçu kimi keçdiyi döyüş yolu və qazandığı təcrübə onun xidmət tarixçəsinin mühüm hissəsidir. Hazırda isə o, üzərinə düşən vəzifələri yerinə yetirərək şəxsi heyətin hazırlığına və hərbi intizamın qorunmasına öz töhfəsini verir. Onun xidmət yolu bir daha göstərir ki, hərbi peşəyə bağlılıq illər ərzində qazanılan təcrübə, intizam və məsuliyyətlə möhkəmlənir.

Emil MURADLI
"Azərbaycan Ordusu"

Hüseynzadə Vüqar Etibar oğluna verilmiş MV № 113746 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 964
Nüsxə 3653